*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 18 fevral 2017-ci il № 13 (2130) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-ın Baş Qərargahlar rəisinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da ABŞ-ın Baş Qərargahlar rəisi general Cozef Danfordun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*



Görüşdə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətlərin hərbi, siyasi, iqtisadi, enerji təhlükəsizliyi, müdafiə, təhlükəsizlik sahələrində uğurla inkişaf etdiyi vurğulandı.

ABŞ-ın Baş Qərargahlar rəisi general Cozef Danford Azərbaycanın beynəlxalq sülhməramlı əməliyyatlarda iştirakını yüksək qiymətləndirdi, ölkəmizin Əfqanıstana yük daşımalarına önəmli töhfə verdiyinə görə təşəkkürünü bildirdi.

Söhbət zamanı ABŞ-ın Baş Qərargahlar rəisinin Azərbaycana səfərinin müdafiə sahəsində əməkdaşlığın daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu, ölkələrimiz arasında dostluq əlaqələrinin bundan sonra da inkişaf edəcəyi bildirildi.

**AZƏRTAC**

## Milli Qəhrəman Çingiz Qurbanovun ailəsi dövlət qayğısı ilə əhatə olunub

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Milli Qəhrəman Çingiz Qurbanovun ailəsinə dövlət tərəfindən hərtərəfli diqqət və qayğı göstərilir.*

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı İlham Əliyev Çingiz Qurbanovun ailəsinin sosial təminatının gücləndirilməsi, o cümlədən Bakı şəhərində üçotaqlı mənzil ayrılması və həmin mənzildə təmir işlərinin həyata keçirilməsi ilə bağlı aidiyyəti dövlət orqanlarına göstəriş verib. Bundan başqa, Milli Qəhrəmanın ailəsinə Qusar rayonunda ayrılmış torpaq sahəsində fərdi evin tikintisi ilə bağlı tədbirlər görülür.

Azərbaycan Ordusunun əsgəri Çingiz Salman oğlu Qurbanov 2016-cı il dekabrın 29-da Ermənistan silahlı qüvvələrinin kəşfiyyat qrupunun təxribat-pozuculuq fəaliyyətinin qarşısını alarkən baş vermiş döyüşdə şəhid olub.

Çingiz Qurbanovun nəşi Prezident İlham Əliyevin tapşırığına əsasən, aidiyyəti dövlət qurumları tərəfindən beynəlxalq təşkilatlarla aparılmış müntəzəm tədbirlər nəticəsində 2017-ci il fevralın 5-də qarşı tərəfdən alınıb. Bakıda təntənəli vida mərasimi keçirildikdən sonra şəhid Ç.Qurbanov fevralın 6-da doğulduğu Qusar rayonunda dəfn edilib.

Fevralın 7-də Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə əsgər Çingiz Qurbanova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi barədə Sərəncam imzalayıb.

Dövlətimizin başçısı fevralın 9-da Milli Qəhrəman Çingiz Qurbanovun ailə üzvləri ilə görüşüb.

## Bakıda ABŞ-ın Baş Qərargahlar rəisi ilə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin görüşü olub

Fevralın 16-da Amerika Birləşmiş Ştatlarının Baş Qərargahlar rəisi general Cozef Danfordun və Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Valeri Gerasimovun Bakıda görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə tərəflər hərbi fəaliyyətin təhlükəsizliyinin artırılması, gərginliyin və insidentlərin yaranması risklərinin azaldılması sahəsində birgə işin istiqamətlərini müzakirə edib, habelə əlaqələri davam etdirmək barədə razılığa gəliblər.

General Cozef Danford və ordu generalı Valeri Gerasimov ABŞ-Rusiya münasibətlərinin cari vəziyyəti, Avropa, Yaxın Şərq, Şimali Afrika və dünyanın digər mühüm regionlarında beynəlxalq təhlükəsizlik sahəsində vəziyyətin qiymətləndirilməsi məsələləri barədə fikir mübadiləsi aparıblar.

## "Böyük güclər Ermənistana təzyiq göstərməli, təcavüzkarı beynəlxalq birliyin iradəsinə tabe etdirməlidirlər"

Azərbaycan Respublikasının Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Dağlıq Qarabağ bölgəsində fevralın 20-də keçirilməsi nəzərdə tutulan qeyri-qanuni "referendum" Azərbaycan Respublikası Konstitusiyasının, beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulması deməkdir.

Bu fikri AZƏRTAC-a açıqlamasında "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin Əlaqələndirmə Şurasının sədri, Qarabağ Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi elmlər doktoru Elçin Əhmədov bildirib.

Elçin Əhmədov qeyd edib ki, Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın nəzarətində olan və tanınmamış qanunsuz rejim həmin bölgədə azərbaycanlı əhalinin etnik təmizlənməsi əsasında yaradılmış cinayətkar qurumdur. Ermənistanın danışıqlarda Dağlıq Qarabağın "müstəqil" tərəf kimi iştirakını təmin etməyə çalışdığını deyən E.Əhmədov vurğulayıb ki, aprel döyüşləri "Dağlıq Qarabağ" adlı qurumun mif olduğunu sübut etdi: "Dördgünlük müharibədə qarşı tərəfin itkiləri arasında bir nəfər də olsun Dağlıq Qarabağ ermənisi yox idi. Çünki "Dağlıq Qarabağ" ordusu mövcud deyil. Orada Ermənistan silahlı qüvvələri var və torpaqlarımızın 20 faizi bu ölkə tərəfindən işğal olunub. Nəyin bahasına olursa-olsun, Azərbaycan işğal altındakı torpaqlarını azad edəcək".

Bundan əlavə, istər ATƏT-in Minsk Qrupunun həmsədrləri, istərsə də vasitəçilik missiyasını öz üzərlərinə götürmüş böyük dövlətlər Ermənistana təzyiq etmək, ümumiyyətlə, işğal faktını qəbul etmək istəmirlər. Bundan istifadə edən Ermənistan Respublikası ərazi ələ keçirmək məqsədilə başladığı təcavüz üçün daşıdığı məsuliyyətdən qaçmağa can atır, Dağlıq Qarabağ ermənilərinin münaqişədə iştirak edən tərəf kimi tanınmasını bütün vasitələrlə dünyaya və Azərbaycana qəbul etdirməyə çalışır. Belə "seçkilər"in keçirilməsinin əsl mahiyyəti də məhz bundan ibarətdir. Lakin Prezident İlham Əliyev Azərbaycan xalqı və dövlətinin bu işğal, etnik təmizləmə siyasəti ilə heç vaxt barışmayacağını və torpaqlarımızı azad etmək üçün əsasımızın olduğunu, bunun beynəlxalq hüquq normaları ilə təsdiq edildiyini vurğulayıb. Prezident deyib: "Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Biz heç vaxt Azərbaycan ərazisində ikinci qondarma erməni dövlətinin yaranmasına icazə verməyəcəyik. Heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək. Əgər kimsə bunu gözləyirsə, qoy, əbəs yerə gözləməsin. Bu, olmayacaq".

"Ona görə də böyük dövlətlər müasir beynəlxalq münasibətlər üçün təhlükəli olan təcavüzkarın qarşısını almalı, qəti addımlar atmalı və Ermənistanı beynəlxalq birliyin iradəsinə tabe etdirməlidirlər", - deyə Elçin Əhmədov vurğulayıb.

# Azərbaycanın Müdafiə naziri Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşüb



*Fevralın 16-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Rusiya Federasiyası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi ordu generalı Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətilə görüşüb.*

Qonaqları salamlayan Müdafiə naziri iki ölkə arasında əməkdaşlığın dostluq münasibətləri və qarşılıqlı inam üzərində qurulduğunu və bu əlaqələrin daim inkişaf etdiyini qeyd edib.

Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik Zakir Həsənov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin regional sabitliyə əsas təhlükə yaratdığını və münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində həllinə nail olunmasının vacibliyini vurğulayıb.

Ordu generalı V.Gerasimov da əlaqələrimizin tarixi köklərə əsaslandığını, Rusiyanın Azərbaycanın vacib tərəfdaşı olduğunu qeyd edərək yüksək hərbi nümayəndələrin qarşılıqlı görüşlərinin təşkili və keçirilməsinin ikitərəfli münasibətlərin, eləcə də hərbi və hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsi baxımından zəruriliyini bir daha qeyd edib.

"Beynəlxalq Ordu Oyunları - 2017" yarışları çərçivəsində keçiriləcək "Dəniz Kuboku - 2017" müsabiqəsinin təşkilində və bilavasitə iştiraka görə Azərbaycana təşəkkürünü bildirən qonaq, bu cür tədbirlərin keçirilməsinin iştirakçı ölkələrin silahlı qüvvələrinin şəxsi heyətinin döyüş hazırlığının artırılması, təcrübə mübadiləsi və hərbi qulluqçular arasında dostluq münasibətlərinin yaranmasına xidmət etdiyini diqqətə çatdırıb.

Sonra tərəflər hərbi sahədə əməkdaşlığın mövcud vəziyyəti, hərbi-texniki, hərbi təhsil və hərbi tibb sahələrində əlaqələrin inkişaf perspektivlərini müzakirə edib və qarşılıqlı maraq doğuran digər regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Sonda ordu generalı V.Gerasimov ABŞ Silahlı Qüvvələrinin Qərargah Rəislərinin Birləşmiş Komitəsinin sədri general Cozef Danford ilə ikitərəfli görüşün Bakıda təşkil edilməsi və yüksək qonaqpərvərliyə görə Azərbaycan dövlətinin rəhbərliyinə dərin minnətdarlığını bildirib.

# Azərbaycanla ABŞ arasında hərbi əməkdaşlıq məsələləri müzakirə olunub



*Fevralın 16-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan ABŞ-ın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Cozef Danfordun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*

Qonaqları salamlayan Müdafiə naziri iki ölkə arasında hərbi əlaqələrin uğurla inkişaf etdiyini qeyd edərək Azərbaycan ilə ABŞ arasında hərbi əməkdaşlıq, o cümlədən Silahlı Qüvvələrimizin NATO proqramları çərçivəsində fəaliyyəti, Əfqanıstanda həyata keçirilən "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasına verilən töhfə haqqında ətraflı danışıb.

Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik Zakir Həsənov münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində həllinə nail olunmasının vacibliyini vurğulayıb.

Öz növbəsində general C.Danford Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Silahlı Qüvvələrdə həyata keçirdiyi uğurlu islahatlardan xəbərdar olduğunu və ölkəmizin terrorizmlə mübarizədə iştirakını, o cümlədən sülhməramlılarımızın Əfqanıstandakı əməliyyatlarda yüksək peşəkarlığını diqqətə çatdırıb.

Qarşılıqlı maraq doğuran görüşdə Xəzər dənizində təhlükəsizlik məsələləri, kütləvi qırğın silahlarının yayılmaması, həmçinin ölkələrimiz arasında ikitərəfli hərbi əlaqələrin genişləndirilməsi, treninqlərin keçirilməsi və hərbi təhsil məsələləri müzakirə olunub.

Azərbaycana ilk dəfə səfər etməsindən məmnun olduğunu bildirən qonaq Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə ikitərəfli görüşün Bakıda keçirilməsi üçün göstərilən səylərə və yüksək qonaqpərvərliyə görə Azərbaycan dövlətinin rəhbərliyinə dərin minnətdarlığını bildirib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,
fotolar
Natiq İSAYEVİNDİR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan və Ermənistan dövlət sərhədində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, fevralın 16-da Tovuz rayonunun Koxanəbi kəndinin yaxınlığından keçən Azərbaycan Respublikası və Ermənistan Respublikasının dövlət sərhədində təşkil edilən monitorinq insidentsiz başa çatıb.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Piter Şvedberq keçiriblər.

Ermənistan tərəfindən isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle və Xristo Xristov aparıblar.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***17 fevral 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 millimetrlik minaatanlardan, həmçinin qumbaraatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 40 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Əməliyyat şəraitinə uyğun olaraq bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

# Hərbi dənizçilərlə Ombudsman Aparatı nümayəndələrinin görüşü keçirilib



Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Ombudsman Aparatı arasında imzalanan 2017-ci il üçün birgə tədbirlər planına əsasən, Hərbi Dəniz Qüvvələrinin tabeliyindəki hərbi hissələrdə "Ombudsman təsisatı və bu təsisatın hərbi qulluqçuların hüquqlarının müdafiəsi yönümündə apardığı işlər" mövzusunda, həmçinin insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi ilə əlaqədar şəxsi heyətlə görüş keçirilib.

Hərbi Dəniz Qüvvələri komandanı vəzifəsini icra edən 1-ci dərəcəli kapitan Zaur Hümmətovun Ombudsman Aparatının hərbi qulluqçuların hüquqi müdafiəsi sektorunun müdiri Fəzail Həsənov və böyük məsləhətçi Murad Babayev ilə görüşü keçirilib.

Gəmilərin komandir və rəis heyətinin də iştirak etdiyi tədbirdə müxtəlif mövzularda məruzələr dinlənilib və fikir mübadiləsi aparılıb.

Sonra qonaqlar gəmilərdə şəxsi heyətin sosial-məişət şəraiti ilə tanış olublar.

# Xarici ölkələrin Azərbaycandakı diplomatik nümayəndələrinin və beynəlxalq təşkilatların rəhbərlərinin Cocuq Mərcanlıya səfəri təşkil olunub

Fevralın 15-də Qaçqınlar və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş diplomatik nümayəndələrinin və beynəlxalq təşkilatların rəhbərlərinin Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinə səfəri təşkil olunub.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində diplomatlar ermənilər tərəfindən Cocuq Mərcanlı kəndində törədilmiş vəhşiliklərlə tanış olacaqlar.

Qeyd edək ki, səfər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 30-da regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının üçüncü ilinin yekunlarına həsr olunmuş konfransda verdiyi tapşırıqlara uyğun olaraq təşkil edilib.

*Strateji mövqeyi, yeraltı və yerüstü sərvətləri, humanist xalqı ilə seçilən Azərbaycan dövləti tarixin istənilən dövründə vətənsevərliyi, igidliyi, cəsurluğu ilə dünya xalqları arasında seçilib. Bəşəriyyətin XX əsrdə üzləşdiyi ən ağır və dəhşətli dövr İkinci Dünya müharibəsi illəri olmuşdur ki, Azərbaycan xalqının bu müharibədə göstərdiyi əzmkarlıq və qəhrəmanlıqlar dillərə dastan olub.*

Ön xətdən reportaj

# "Vətənini sevən hər kəs mübariz döyüşçüdür"



Ümummilli liderimiz Heydər Əliyev demişdir: "Azərbaycan xalqı İkinci Dünya müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə əsl şücaət və əzmkarlıq nümunələri göstərmişdir. Müharibə başlanandan keçən qısa müddət ərzində Azərbaycan Respublikası ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilmişdir. 1941-1945-ci illərdə respublikanın 600 mindən çox oğlan və qızları cəbhəyə getmişdir".

XX əsrin sonlarında Azərbaycan yenidən müstəqillik qazandı. Lakin bu cəsur xalqa öz tarixi torpaqlarında dinc yaşamağa imkan vermədilər. Öz havadarlarına arxalanan mənfur ermənilər əsassız ərazi iddialarına və təcavüzkarlığa əl atdılar. Torpaqlarımızın bir qismi işğal olunsa da, Azərbaycan xalqı öz müstəqilliyini qoruyub saxladı. Ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində qısa zaman kəsiyində güclü ordu yaradıldı. Bu gün Azərbaycan Ordusu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı nəticəsində möhkəmlənərək yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu gün fərəhlə demək olar ki, ordumuz dövlət müstəqilliyimizin ən dəyərli töhfələrindən biridir. Dövlətimizin və xalqımızın qayğısı ilə əhatə olunmuş Silahlı Qüvvələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ciddi islahatlar həyata keçirilir.

Paytaxtdan yüzlərlə kilometr məsafədə olan hərbi hissələrimizdə ezamiyyətdə olarkən bunların şahidi olur, şəxsi heyətlə söhbət edib, onların da fikirlərini oxucularımıza çatdırmağa çalışırıq.

"N" hərbi hissəsində şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh zabit Möhübbət Tağıyev yeni hərbi hissədə əsaslı təmirin başa çatdığını və şəxsi heyətin ən müasir standartlara cavab verən yataqxanalarda yerləşdiyini bildirdi. - Hər gün şəxsi heyət günün nizam qaydasına uyğun olaraq öz xidməti vəzifələrini yerinə yetirir. PDM (Piyadanın Döyüş Maşını) heyəti hazırda təlim meydanındadır. Bacarıqlı və təcrübəli heyət haqqında deyilən xoş sözlərdən sonra onlarla görüşmək qərarına gəlib təlim meydanına yollanırıq.



Nümunəvi PDM heyətinin üzvləri havanın soyuq və şaxtalı olmasına baxmayaraq verilən əmr və tapşırıqları düzgün yerinə yetirməyə çalışır və bacarıqla öhdəsindən gəlirlər.

İlk həmsöhbətimiz gizir Səxavət Əhmədovdur. O, komandiri olduğu heyətin daim öz vəzifəsinin öhdəsindən bacarıqla gəldiyini, təlimlər zamanı bilik və bacarıqlarını, döyüş vərdişlərini inkişaf etdirdiyini vurğuladı. - Hər bir heyət üzvü bilir ki, piyadanın doyüş maşını piyada və motoatıcı hissələri atəşlə təmin etmək, onların mobil fəaliyyəti və qorunması üçün nəzərdə tutulmuşdur. Başqa qoşun növləri üçün də modernizə edilmiş nümunələri var.

Döyüş maşınının komandiri hər bir heyət üzvünün ayrı-ayrılıqda nizam-intizamlı hərbi qulluqçu, birlikdə isə təcrübəli döyüşçülər olduğunu deyir.

Baş texnik olaraq PDM heyətləri arasında xüsusi hörmətə malik olan gizir Emin Məmmədovla söhbətimiz zamanı öyrənirəm ki, müddətli həqiqi hərbi xidmətini ön xətdə yerləşən hərbi hissələrdən birində artilleriya bölməsində tuşlayıcı vəzifəsində keçirib. Komandirləri tərəfindən rəğbət qazanan, zirehli texnikalara maraq göstərən və döyüş vərdişlərinə yiyələnən Emin qətiyyətlə ömrünün qalanını da orduya bağlayıb.

- Müddətli həqiqi hərbi xidmət etdiyim illərlə müqayisədə maddi-texniki təminat günügündən yaxşılaşır, əsgər və zabitlərimizin uğurlu xidməti üçün hər bir şərait yaradılır, - deyə gizir bildirir.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Sərxan Əhmədovla da həmsöhbət oluruq. Döyüş maşınının səs küyünə, gün ərzində davam edən təlimin yorğunluğuna baxmayaraq sürücü-mexanik düşmənə olan nifrətindən, tezliklə torpaqlarımızı azad edəcəklərindən söz açdı.

- Azərbaycan Silahlı Qüvvələri sırasında xidmət edən hər bir kəs torpaqlarımızın azad edilməsinin fərqindədi. Ürəyində Vətən sevgisi, gözündə düşmənə nifrət, Şuşaya, Qarabağa, Kəlbəcərə, Qubadlıya və digər işğal altında olan torpaqlarımıza ayaq basmaq arzusunda olan hərbi qulluqçularımız daim öz üzərlərində çalışaraq, bilik və bacarıqlarını artırırlar. Vətənini sevən hər kəs bu gün mübariz döyüşçüdür.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

## Münxendə Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesinin intensivləşdirilməsi müzakirə edilib

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Münxen Təhlükəsizlik Konfransı çərçivəsində ATƏT-in Minsk Qrupunun həmsədrləri İqor Popov (Rusiya), Stefan Viskonti (Fransa), Riçard Hoaqland (ABŞ), həmçinin ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin Sankt-Peterburq görüşündəki müzakirələrinin davamı olaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesinin intensivləşdirilməsinə dair fikir mübadiləsi aparılıb.

Nazir Elmar Məmmədyarov münaqişənin həlli prosesində irəliləyişə nail olmaq üçün substantiv danışıqlara başlamaq məqsədilə səylərin artırılmasının vacibliyini vurğulayıb.

Görüşdən sonra ATƏT-in Minsk Qrupunun həmsədrlərinin dəvəti əsasında həmsədrlərin Azərbaycan və Ermənistan xarici işlər nazirləri ilə birgə şam yeməyi olub.

Gənc zabitlərimiz

# Dünən əlaçı kursant, bu gün isə nümunəvi zabit

*2016-cı il 25 iyun tarixi... Heydər Əliyev adına Ali Hərbi Məktəb... Elə bir təhsil ocağı ki, Vətən oğullarına Vətən sevgisini öyrədir. Azərbaycan Ordusunun ehtiyaclarına cavab verəcək bacarıqlı zabitlər yetişdirir. İsti yay günündə tədris ocağında buraxılış mərasimi...*

Kursant Mais Əsgərov qürur duya-duya yaş kötüyünə simvol döyür. Kursantın beynində parlayan, cilvəli, Vətən sevgisinə çağıran ideyalar bir-birinin ardınca düzülür, biri özündən sonra başqa birisini çəkib gətirir, birindən o birisi doğur, ona şövq verir. Kursantın bu sevinci yaşamağa haqqı çatır.



Təhsil ocağının sınaqlarından uğurla çıxan, məktəb birincisi olmaq sevincini yaşamış gənc, bu gün zabit kimi Vətənin xidmətindədir.

2017-ci ilin fevralı... Müasir standartlara uyğun hərbi hissə... Yenə nümunəvi hərbçilər sırasında gənc zabit, taqım komandiri leytenant Mais Əsgərov da var. Nə dəyişib. 7 ay da olsa, ömrünün üstünə ömür gəlib. Dünən təhsil ocağında kursant idi, bu gün hərbi hissədə leytenantdı. Nəzəri bilikləri praktikada tətbiq etmək imkanı qazanıb. Dəyişən və dəyişməyən halları çox sadalamaq olar. Mənim sezdiyim və xatırlatmaq istədiyim bir amil - nümunəvi olmaq Mais Əsgərovun həyat kredosuna çevrilib. Söhbət zamanı söylədiyi "Mən o insanı xoşbəxt hesab edirəm ki, elm arxasınca gedir. Kiməsə faydası dəyir. O insan xoşbəxtdir ki, Vətəni üçün, xalqı üçün bir iş görür. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, şərəfli bir peşənin daşıyıcılarıyıq" - fikirlər həmsöhbətimin kim olduğunu tamlığı ilə ortaya qoyur.

Hərbi xidmət haqqında söhbətimiz zamanı bildirir ki, şəxsi heyətimiz günün nizam qaydasına uyğun olaraq fəaliyyətini tənzimləyir. "Azərbaycan Silahlı Qüvvələrində nəzərdə tutulan bütün dərslər - ictimai-siyasi hazırlıq, taktiki hazırlıq, kütləvi qırğın silahlarından mühafizə, yanğın əleyhinə hazırlıq, atəş hazırlığı, sıra hazırlığı və s. keçirilir. Yeri gəlmişkən onu da qeyd edim ki, ictimai-siyasi hazırlıq dərsindən sonra sıra hazırlığı olacaq. Bundan başqa taborumuz NATO ilə "Qiymətləndirmə" proqramı çərçivəsində əməkdaşlıq edir. Onun nəticəsidir ki, həmin proqram çərçivəsində təlimlərin keçirilməsi məqsədilə taborumuzun şəxsi heyəti keçən ilin aprel ayından oktyabr ayınadək Təlim Mərkəzində olub. Məqsəd NATO nümayəndələrinin və Müdafiə Nazirliyi Beynəlxalq Əməkdaşlıq İdarəsi əməkdaşlarının nəzarəti ilə baş tutan "Qiymətləndirmə" sınağına yüksək səviyyədə hazırlaşmaqdır.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Ordu quruculuğu uğurla davam etdirilir

*<u>Bu gün Azərbaycanda ordu quruculuğu prosesi sahəsində mühüm nailiyyətlər əldə edilib. Bu nailiyyətlər ölkə rəhbərliyi tərəfindən aparılan məqsədyönlü siyasət və görülən tədbirlərin nəticəsidir. Ölkəmizin hərbi potensialının gündən-günə güclənməsini və döyüş hazırlığını diqqətdə saxlayan Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev hər zaman çıxışlarında qeyd edir ki, ordu quruculuğu prosesi uğurla davam edir. Ordumuz regionda həm kəmiyyət, həm də peşəkarlıq baxımından öndədir.</u>*

<u>Ali Baş Komandan İlham ƏLİYEV:</u>

*Ordu quruculuğu prosesi, təbii ki, təkcə maddi-texniki təminatla məhdudlaşmır. Döyüş qabiliyyəti, əsgər-zabit heyətinin mənəvi-psixoloji durumu mühüm yer tutur. Mən tam əminliklə deyə bilərəm ki, bu baxımdan Azərbaycan Ordusu güclü ordular sırasındadır. Döyüş qabiliyyəti artır, orduda mənəvi-psixoloji vəziyyət çox müsbətdir, vətənpərvərlik ruhu, nizam-intizam yüksək səviyyədədir.*




Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan və Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilən ordu quruculuğunun prioritet sahəyə çevrilməsi Silahlı Qüvvələrimizin maddi-texniki təminatını ən yüksək səviyyəyə çatdırıb. Bu gün Azərbaycan Ordusu müasir texnoloji əsaslarla qurularaq yeni inkişaf yoluna qədəm qoyub.

Səfərimiz açılışında Ali Baş Komandan İlham Əliyevin iştirak etdiyi hərbi hissəyədir. Hərbi hissənin ən yüksək standartlara cavab verdiyini Ali Baş Komandanımızın çıxışından sitat gətirməklə qeyd etmək yerinə düşərdi: "...Ərazisi 42 hektar olan bu şəhərcik ən yüksək standartlara cavab verir. Şəhərciklə tanış olarkən görürəm ki, xidmət aparmaq, yaşamaq üçün bütün şərait var. Ən müasir standartlar tətbiq olunub, xidmət şəraiti ən yüksək səviyyədədir. Hesab edirəm ki, bu hərbi şəhərcik dünya miqyasında nümunəvi hərbi şəhərcikdir".



Nəzarət-buraxılış məntəqəsində özümüzü təqdim edib qərargaha yollandıq. Qərargahın qarşısında zabit Ruslan Əbilovla görüşdük.

- Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımların nəticəsini bu gün hərbi hissəmizin də timsalında görmək imkanınız yaranıb, - bizimlə söhbətində mayor Əbilov bildirdi. - Bu, dövlətin Silahlı Qüvvələrin şəxsi heyətinə diqqət və qayğısının təzahürüdür. Şəhərcikdə ikimərtəbəli qərargah binası, zabit, gizir və çavuşlar üçün 9 yaşayış binası, 13 əsgər yataqxanası, müasir avadanlıqlarla təmin edilmiş tibb məntəqəsi, şəxsi heyətin qidalanması məqsədilə inşa edilən yeməkxana, hərbi qulluqçuların asudə vaxtının təşkili üçün klub, 3 sıra meydanı, idman şəhərciyi, hamam-camaşırxana-qazanxana kompleksi inşa edilib. Gördüyünüz yüksək səviyyəli məişət şəraitinin qurulması, yeməkxanaya, təmizlik işlərinə, hamam-camaşırxana-qazanxana kompleksinə mülki işçilərin cəlb edilməsi döyüş hazırlığının yüksəldilməsinə təminat verən əsas amillərdəndir.

Hərbi hissənin xidmət şəraitini işıqlandırmaq barədə istəyimizi bildirəndə mayor Əbilov istənilən hərbi bölməni seçim etməyimizi bizim ixtiyarımıza buraxdı. Qeyri-ixtiyari olaraq bir taborun əsgər yataqxanasına yaxınlaşırıq.

## Beynəlxalq əməkdaşlığa diqqət yetirilir

- Bu bina Əməliyyat İmkanları Konsepsiyası Taboruna məxsusdur, - deyə mayor Əbilov bildirdi. - Müasir dövrdə dövlətlərin inkişafını şərtləndirən amillər sırasında həmin dövlətin beynəlxalq münasibətlər sistemində yeri və rolu xüsusi önəm kəsb edir. Bunu nəzərə alan Müdafiə Nazirliyinin rəhbərliyi beynəlxalq əlaqələrə xüsusi dəyər verir. Güclü ordunun inkişafının əsas xüsusiyyətlərindən biri də beynəlxalq əməkdaşlıq və qazanılmış təcrübədən qarşılıqlı istifadədir. Azərbaycan Silahlı Qüvvələrinin döyüş hazırlığının yüksək saxlanılması, müasir hərbi texnika və silahlarla təchizi məsələsində region və digər dövlətlərlə münasibətlər mühüm əhəmiyyət kəsb edir. Bu mənada gələcəkdə NATO ilə fərdi və birgə fəaliyyətin inkişafı üçün əhəmiyyətli zəmanət yarada biləcək Əməliyyat İmkanları Konsepsiyası Taboru ilə yaxından tanış olmaq imkanınız yaranıb.

Zabit Ramal Əzimov taborun hansı istiqamətdə fəaliyyət göstərdiyinə aydınlıq gətirdi: "Taborumuz PAP prosesinin tamamlanması və NATO qüvvələri ilə yüksək səviyyəli uyarlığa nail olmaq məqsədilə yaradılıb. Bu gün taborun bütün növ təminatı və döyüş hazırlığı tam olaraq NATO standartlarına uyğunlaşdırılıb və 2011-ci ildən etibarən NATO qiymətləndirmələrindən müvəffəqiyyətlə keçərək 2014-cü ildə NATO standartlarına uyğun "Döyüşə hazır" sertifikatını qazanıb. Bu gün fəxrlə deyə bilərik ki, Azərbaycan Respublikasının dünyanın aparıcı dövlətləri ilə hərbi əlaqələrinin inkişafı fonunda ƏİK taboru bir çox beynəlxalq hərbi təlimlərdə Silahlı Qüvvələrimizi layiqincə təmsil edir".



## Vətəni qoruyanların xidmətində dayanmaq şərəfdir

Hərbi hissənin hamam-camaşırxana-qazanxana kompleksi də müasir standartlara uyğun qurulub. Kompleks şəxsi heyətin sanitar-gigiyenik təmizliyini öz üzərinə götürüb və təcrübəli mülki işçilərin hesabına tapşırıqların öhdəsindən layiqincə gəlir.

- Şəxsi heyət yuyunduqdan sonra paltarların təmizlənməsi prosesi gördüyünüz avadanlıqların hesabına həyata keçirilir, - deyə qurucu-ütüləyici Qızyetər Ağayeva bildirdi.

Gilə Qasımova, Gülnar Dünyamalıyeva və Fazilə Hacıyeva da həmkarlarının fikrini təsdiqlədilər. Söhbət əsnasında öyrəndim ki, paltarlar ilkin olaraq strelizə olunur və tərəzidə çəkilir. Məqsəd paltarların kütləsini maşının çəkisinə uyğunlaşdırmaqdır. Maşınlarda yuyulan paltarlar barabanlarda qurudulur.

Xadimə Validə Baxşıyeva ümumi təmizlik işinə baxır. O, hesab edir ki, təmizlik imandandır. "Xüsusilə Vətəni qoruyan, Vətənin keşikçiləri olan əsgərlərin təmizliyinə xidmət etmək daha şərəflidir".

Bütün bunlar onu göstərir ki, əsgərlər, hərbi qulluqçular əsas peşələrindən - hərb sənətini öyrənmək işindən yayınmırlar, artıq təsərrüfat işlərini mülki işçilər həyata keçirirlər. Bu isə şübhəsiz ki, hərbi qulluqçuların daha peşəkar hazırlanması işində müsbət rol oynayır.

## Mövzuların əsas qayəsi dövlətçiliyə sədaqətdir

Xalqımızın hərbi vətənpərvərlik hissi min illərlə möhkəmləndirilmiş ülvi hissdir. Bu hiss insanın Vətəninə hədsiz məhəbbət bəsləməsində, onun müvəffəqiyyətlərini gördükdə ürəkdən sevinməsində, düşmənlərinə dərin nifrət bəsləməsində və hər qarış torpağın göz bəbəyi kimi qorunmasında ifadə olunur.

"N" hərbi hissəsində müasir standartlara cavab verən ideoloji otağa daxil olarkən ilk olaraq diqqətimi ümummilli lider Heydər Əliyevin "Azərbaycanın müstəqilliyi əbədidir, daimidir, dönməzdir" kəlamı cəlb etdi. "Ümummilli lider Heydər Əliyev və ordu quruculuğu", "Ali Baş Komandan İlham Əliyev və Azərbaycan Ordusu", "Azərbaycan hərb tarixi", "Ermənistanın Azərbaycana qarşı təcavüzü", "Azərbaycanın generalları", "Böyük Vətən müharibəsi", Hərbi and, dövlət rəmzləri, hərbi rütbələr və digər məlumat lövhələri ideoloji otağın divarlarını bəzəyir.

**(Ardı 5-ci səhifədə)**

# Ordu quruculuğu uğurla davam etdirilir



(Əvvəli 4-cü səhifədə)

Bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini baş leytenant Edqar Şamxalov əsgərlərə ictimai-siyasi hazırlıq dərsi keçirdi. Dərs prosesini izlədim, gənc zabitin şəxsi heyətə "Azərbaycan dövlətçiliyinin yaranma tarixi və inkişaf mərhələləri" mövzusunda keçdiyi məşğələyə diqqət yetirdim. O, mövzunu əhatəli şəkildə əsgərlərə aşılamağa səy göstərərək eramızdan əvvəl meydana gəlmiş Aratta və Manna dövlətlərindən başlayaraq Səfəvilər dövründə Azərbaycan dilinin dövlət dili elan edilməsindən, XIX əsrdə Azərbaycanın xanlıqlara bölünməsindən və Rusiya tərəfindən işğala məruz qalmasından, Türkmənçay müqaviləsindən, 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyəti dövründən, Sovet imperiyasından və nəhayət, 1991-ci ilin sonlarında Azərbaycanın öz dövlət müstəqilliyini əldə etməsi haqqında geniş məlumat verərək bildirdi ki, ümummilli lider Heydər Əliyev Azərbaycana böyük tarixi nailiyyətlər, tükənməz dövlətçilik təcrübəsi və əbədi müstəqillik qazandırdı. "Onun milli-mənəvi taleyimiz, gələcəyə doğru inkişafımız üçün yadigar qoyduğu sərvətlərdən biri də azərbaycançılıq ideologiyasıdır. Ulu öndərin yeni tarixi dövrdə - 15 iyun 1993-cü ildən etibarən apardığı müstəqil Azərbaycanın dövlət siyasətinin əsasında məhz azərbaycançılıq ideologiyası dayanırdı..."

Dərsin gedişində əsgərlər Elnur Şabanzadə, Əli Talıbzadə, Elvin Şükürlü, Ruslan Rəcəbov və başqalarının fəallığı da diqqətimdən yayınmır.

Baş leytenantın peşəsinə olan sevgisini keçdiyi məşğələdə və əsgərlərlə münasibətində hiss etməmək mümkünsüzdü. Onun gözlərindəki Vətən eşqi və xidmətə olan doğmalığı qəlbimi qürurlandırdı. Bayaqdan əsgərlərə həvəslə keçdiyi dərsin hisslərini yaşayan zabit hər həftənin 1-ci və 5-ci günlərində saat ictimai-siyasi hazırlıq dərslərinin keçirildiyini qeyd edərək bildirdi ki, müstəqil dövlətimizin ideologiyasının, həmçinin azərbaycançılıq və yurdsevərlik ideyalarının əsgərlər arasında da təbliğinə böyük ehtiyac var. "Dövlətçilik, vətəndaşlıq təkcə orta məktəb dərsliklərində və ya hansısa əyani vasitələrdə əks olunmalı deyil, bütün sahələrdə təbliğ edilməli, sevgi və ehtiram hədəfinə çevrilməlidi. Biz dərslik vasitəsi kimi "Azərbaycan Ordusu" qəzetindən, "Hərbi bilik" və digər əyani vəsaitlərdən də istifadə edirik. Gənclərimizin həm hazırlıqlı döyüşçü, həm də əsl vətəndaş kimi yetişməsində əlimizdən gələni əsirgəmirik."

Məşğələni aparan zabit E.Şamxalov Zaqatala rayonunda anadan olub. Müharibə ovqatında böyüyən, hər an müharibəyə hazır olan bir dövlətin vətəndaşı kimi formalaşan Edqarın hələ uşaq yaşlarından ən böyük arzusu hərbçi olmaq idi. Məktəbdə də, yaşıdları ilə söhbətlərində də, o, bu arzusunu yorulmadan dilə gətirirdi. Arzularının həyata keçəcəyi günün həsrətilə yaşayan Edqar bir gün Cəmşid Naxçıvanski adına Hərbi Liseyə sənədlərini verib. Burada ilk hərbi təhsilini aldıqdan sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. Ön xətdəki hərbi hissələrdən birində xidmətə başlayır. 2014-cü ildən isə bu hərbi hissədə xidmət edən zabit vurğuladı ki, ordumuz bu gün Vətənimizin müstəqilliyinə yönəldilmiş hər hansı bir qəsdə layiqli cavab verməyə hazırdır. "Biz aprel döyüşlərində bir daha bunun şahidi olduq və hər an Ali Baş Komandanın döyüş əmrinə hazırıq."



## Şəxsi heyət mövsümə uyğun qidalanır

Nahar fasiləsində əsgərlərin qidalanması prosesini yaxından izləmək məqsədilə çox sayda hərbi qulluqçuların eyni vaxtda qidalanmasına imkan verən əsgər yeməkxanasına daxil oluruq. İlk olaraq diqqətimizi divarda çox hərflərlə yazılan "Çörəyimiz bol, xalqımız ruzi-bərəkətli, torpaqlarımız basılmaz olsun" şüarı cəlb etdi. Baş aşpaz Aydəmir Baxşəliyev qeyd etdi ki, əsgərlərin qidalanması ilk növbədə hərbi hissənin əvvəlcədən müəyyənləşdirilmiş menyusuna əsasən aparılır. Qidaların kalorisinə xüsusi diqqət yetirilir. Yeməklərin hazırlanması prosesinə mülki şəxslər, əsasən də qadınlar cəlb olunublar. Bu da yeməklərin keyfiyyətli hazırlanmasına səbəb olur. İndi menyumuzda əsasən qış mövsümünə uyğun olan milli yeməklər bişirilir. Söhbət zamanı Aydəmir Baxşəliyev işçilərin 4 növbəli iş prosesinə cəlb edildiyini də bildirdi.

Söhbət zamanı aşpaz Turac Nadirova Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin hərbi hissəyə gəlişini xatırlatdı və bu gəlişin xüsusi əhəmiyyət daşıdığını qeyd etdi: "Cənab Prezidentin gəlişi hər birimizdə bayram əhval-ruhiyyəsi yaratdı. Prezident İlham Əliyevin bizlərlə görüşməsi, şəxsən maraqlanması ruh yüksəkliyimizi daha da artırdı."

Aşpaz Nuriyyə Şərifova yeməklərin axşamdan yarımfabrikat hazırlandığını qeyd etdi. Onu da bildirdi ki, günorta yeməyinə əsgərlərimiz üçün iki cür sulu və iki cür quru yemək hazırlanır. Ondan başqa yeməklərimizin yanında salat və kompot da qoyulur.

Yeməkxana xidmətçiləri Fatma Əsgərova, Əntiqə Süleymanova, Naibə Ağəliyeva, Şəfəq Qənbərova gün ərzində əsasən zalda təmizlik işlərini apardıqlarını vurğuladılar. Qeyd etdilər ki, əsgərlər nahar etdikdən sonra zalı, stolların üstünü şampunla yuyub təmizləyirlər.

Qabyuma otağına keçib Tükəz Əliyeva, Xanım Məmmədova, Nəsibə Kamilova, Sona Abıyeva ilə də həmsöhbət oluruq. Həmsöhbətlərim qabyuma prosesinə başlayanda rezin əlcəklərdən istifadə etdiklərini xüsusi qeyd etdilər. Yuyulmuş qablar xüsusi rəflərə düzüldükdən sonra xətt işçiləri təmiz qabları aparırlar.

Yeməklərin keyfiyyətini öyrənmək məqsədilə əsgərlər Fəqan Lətifovla, Bayram Mamedovla, Asif Hümbətovla, Əbülfət Babayevlə söhbətləşmək imkanı qazanırıq. Əsgərlər mütəmadi olaraq milli xörəklərlə qidalandıqlarını və yeməklərin keyfiyyətindən razı qaldıqlarını bildirdilər. Biz də əsgərlərlə nahar edib onların söylədiklərini təsdiqləyirik: həqiqətən əsgərlərimiz üçün peşəkar işçilər tərəfindən hazırlanan yeməklərimizin keyfiyyətinə söz ola bilməz.

## Döyüş hazırlığında fiziki tərbiyənin də böyük rolu var

Fiziki tərbiyə işinə Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən xüsusi önəm verilir. Hərbi bölmələrin birində fiziki hazırlıq məşğələsində də iştirak edirik.

Leytenant Mərhəmət Məmmədli hesab edir ki, Azərbaycan torpaqlarının erməni təcavüzündən təmizlənməsi gənclərin həm də fiziki təlimindən çox asılıdır. Buna görə də Azərbaycan Silahlı Qüvvələrində gənclərin fiziki tərbiyəsinə xüsusi diqqət yetirilir: "Əsgərlərlə hərbi-fiziki xarakterli təlim-tərbiyə işləri, eləcə də idmanın hərbi-tətbiqi növləri (yüngül atletika, əlbəyaxa döyüş, gimnastika, güləş, cüdo, sambo, üzgüçülük, atıcılıq və s.) üzrə müntəzəm olaraq məqsədyönlü tədbirlər həyata keçirilir".



Gizir Elşad Qurbanov da söhbətimiz zamanı Silahlı Qüvvələrdə hərbi-fiziki, tətbiqi təlimlərin Vətənin müdafiəsində, zəbt edilmiş torpaqların azad edilməsində mühüm əhəmiyyət kəsb etdiyini bildirdi: "Çünki bu təlimlər zamanı hərbi xidmətdə olan gənclərimiz hərbi-tətbiqi idman növləri üzrə müvafiq bilik, bacarıq və vərdişlərə yiyələnirlər. Bütün bunlar da Vətənin müdafiəsi və düşmən üzərinə hücum zamanı qələbənin təmin olunmasına şərait yaradır".

Öyrənirik ki, Qazax rayonunun Daş Salahlı kəndindən olan əsgər Bayram Sofiyev 2015-ci ildə güləş üzrə respublika çempionu olub. Sofiyev hesab edir ki, silahla rəftar etmək və müxtəlif hərəkətlər dairəsində aparılan müntəzəm təlimdən əlavə, güləş, əlbəyaxa döyüş və s. bu kimi idman növləri ilə məşğul olmaq zəruridir.

Əsgərlər İlqar Həsənov, Sellər Nəsirli, Əfsun Rəhmanov, Elnur Zeynalov və Kənan Musayev bildirdilər ki, qələbə naminə təlimdə daha çox tər tökmək lazımdır.

Bəli, əsgərlərimizin fikri ilə tamamilə razıyıq. Doğma Yuxarı Qarabağın və onun ətrafındakı yeddi rayonun - Ağdam, Füzuli, Laçın, Cəbrayıl, Zəngilan, Qubadlı və Kəlbəcərin qaytarılması sülh yolu ilə baş tutmasa, hərbi texnika ilə yanaşı, ordunun fiziki hazırlığından, vətənpərvərliyindən, dözümlülüyündən, möhkəm iradəsindən, yüksək psixoloji əhval-ruhiyyəsindən çox şey asılıdır.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Xarici dövlətlərin hərbi attaşeləri Hərbi Akademiyada olublar



*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi illik fəaliyyət planına əsasən, ölkəmizdə akkreditə olunan xarici dövlətlərin hərbi attaşeləri üçün fevralın 15-də Silahlı Qüvvələrin Hərbi Akademiyasına tanışlıq səfəri təşkil olunub.*



On beş dövləti təmsil edən 20-dən çox hərbi attaşelik aparatının nümayəndələri akademiyanın tədris fəaliyyəti ilə tanış olub, onlara təhsil müəssisəsi haqqında brifinq təqdim edilib və maraqlandıran suallar cavablandırılıb.

Hərbi attaşelər ziyarətin yüksək səviyyədə təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

Hərbi təhsil

# Azərbaycanda hərb tarixi elmi

*Qədim və çoxəsrlik tarixə, zəngin və qüdrətli dövlətçilik ənənələrinə malik olan Azərbaycan müasir dünyanın inkişaf etmiş dövlətləri sırasında özünün iqtisadi və siyasi qüdrəti ilə fərqlənir. Ulu öndərimiz Heydər Əliyevin siyasəti xalqımızın işıqlı gələcəyini müəyyən etdi. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev bu siyasəti uğurla davam etdirir.*

İndi tarixin yeni-yeni səhifələri yazılır. Başqa elm sahələrində olduğu kimi, hərb tarixi sahəsində də nailiyyətlər əldə edilməkdədir. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının Adyunktura və Elm şöbəsinin tarixçi alimlərinin də uğurları danılmazdır. 2016-cı ilin yanvarından Adyunktura və Elm şöbəsinin tərkibində hərb tarixi qrupu yaradılıb. Bu hərb tariximizi daha sistemli şəkildə öyrənməyə imkan yaradır. Hərb tarixi qrupu fəaliyyətini Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişləri əsasında həyata keçirir. Bu istiqamətdə Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəhbərliyinin müəyyənləşdirdiyi konkret planların uğurlu icrası hərb tarixi elminin formalaşdırılması və inkişafı ötən illərdən başlanan işlərin yeni səviyyəsini yüksəltməyə imkan verir.

Məlumdur ki, hər millətin keçmişinə nəsillərin vahid qırılmaz tarixi əlaqəsini təşkil edən müxtəlif hadisələr daxildir. Onların sırasında hərbi-siyasi hadisələr xüsusi yer tutur, çünki məhz belə hadisələrin sonunda özünün mövcudolma hüququ uğrunda mübarizə aparan millətin birlik əzmi və mətinliyi sınanır. Azərbaycan xalqı da belə çətin tarixi yol keçib.

Ərazi bütövlüyünü təmin etmək üçün Ermənistanla mübarizə və müharibə aparmağa məcbur olan Azərbaycanın otuz əsrdən çox yaşı olan zəngin hərbi-tarixi keçmişinin hərtərəfli və dərindən öyrənilməsi indi xüsusilə aktualdır.

Hərb tarixi qrupu tərəfindən aparılan araşdırmalar Azərbaycanda hərb işinin yaranması və inkişafı proseslərini ən qədim zamanlardan müasir dövrədək olan böyük bir mərhələsini əhatə edir. Ölkə ərazisində mövcud olmuş dövlətlərin apardığı müharibələr və hərbi ənənələri də öyrənir.

Azərbaycan ərazisində baş vermiş çoxsaylı müharibələrin, onların mahiyyəti və xarakterinin, yaranma səbəblərinin və törətdiyi fəsadların araşdırılması, qarşımızda duran əsas vəzifələrdəndir. Bununla bağlı Azərbaycanda hərb tarixi elmi üzrə araşdırmaların genişləndirilməsi və istiqamətləndirilməsi üçün Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq tapşırığı ilə 2016-cı il mayın 4-də "Heydər Əliyev irsində hərb tarixi məsələləri" mövzusunda Adyunktura və Elm şöbəsi tərəfindən ümumrespublika elmi konfransı təşkil olundu. Bu konfransda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycanın hərb tarixi və Azərbaycanda hərbi quruculuq ilə bağlı fikirləri geniş araşdırmaların obyekti oldu və bu irsin öyrənilməsi istiqamətində aktual vəzifələr müzakirə edildi.

Konfransın gedişində Azərbaycanda hərb tarixi elminin istiqamətlərini öyrənən alim və tədqiqatçıları əlaqələndirmə şurası yaradıldı və hərb tarixi sahəsində araşdırmaların koordinasiya edilməsi üçün konkret məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Bu konfransda "Azərbaycanda hərb tarixi elminin əsas istiqamətləri" adli vəsait müzakirə edilmişdi.

Hərbi Akademiyanın Adyunktura və Elm şöbəsinin tarixçilərinə əsas diqqətin Azərbaycanın hərb tarixinin öyrənilməsinə dair tədqiqat sahələrinin, Azərbaycan Respublikası Silahlı Qüvvələrin quruculuğu, hazırlığı və tətbiqi tarixinin aktual problemlərinin əsas istiqamətlərinin müəyyənləşdirilməsinə, o cümlədən Azərbaycanda qədim və orta əsrlər dövründə hərb işinin yaranması və inkişafına, yeni və ən yeni dövrlərdə hərbi quruculuq problemlərinin tədqiqi məsələlərinə yönəldilməsi tapşırılmışdır. Ən qədim dövrlərdən indiyədək Azərbaycanın hərb tarixinin, həmçinin, Azərbaycan Ordusunun yaranma tarixinin kompleks öyrənilməsi və Azərbaycan tarixşünaslığı kontekstində araşdırılması qarşıya əsas vəzifə kimi qoyulmuşdur.

Tarixşünaslıq sahəsində çalışan alimlərimiz qısa zamanda bu elmə bir sıra yeniliklər gətirmiş, ayrı-ayrı tarixi dövlətlərdə hərb tarixinə aid elmi tədqiqatların nəticəsi olan monoqrafiyalar, kitablar, məcmuələr, elmi konfrans materialları, dərs vəsaitləri və s. nəşr etdirmişlər.

Hərb tarixinin araşdırılması sahəsində çalışan tədqiqatçıların "Azərbaycan tarixçilərinin elmi əsərlərində hərbi məsələlər" (biblioqrafik göstərici), "Dərbəndin hərbi-strateji əhəmiyyəti və onun tanınmış hərbçiləri", "Azərbaycanın qədim və orta əsrlər hərb tarixi", "Azərbaycanın hərb tarixi". 1-ci hissə (Azərbaycanda qədim dövrdə hərbi tarixi hadisələri) monoqrafiyası (Azərbaycan, rus və ingilis dillərində) kitabları nəşr olunmuş, 3 proqram hazırlanmış və çap edilmişdir. Azərbaycan Ordusunun 100 illik tarixi ilə bağlı "Azərbaycan ordusunun tarixi" adlı çoxcildliyin 5 cildi çapa hazırlanmışdır. 2016-cı il ərzində Hərbi Akademiyanın Adyunktura və Elm şöbəsinin tarixçilərinin respublika daxilində 19 elmi məqaləsi, metodiki vəsaiti, respublika xaricində 3 elmi məqaləsi çap olunmuşdur.

Hərbi Akademiyada hazırlanmış "Azərbaycan tarixçilərinin elmi əsərlərində hərbi məsələlər" biblioqrafik göstərici respublikanın ali humanitar və xüsusi təyinatlı təhsil müəssisələrinin dinləyiciləri, xüsusilə tədqiqatçı alimlər tərəfindən maraqla qarşılanmışdır. Biblioqrafik göstəriciyə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda, Azərbaycan Tarixi Muzeyində, Azərbaycan Respublikası Silahlı Quvvələrinin Hərbi Akademiyasında və digər elmi təşkilatlarda çalışmış tarixçi alimlərin əsərləri daxil edilmişdir.

Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunkturasına "Hərb tarixi" ixtisası üzrə qəbul imtahanının proqramı tərtib edilmiş, imtahanlar bunun əsasında təşkil olunmuşdur.

Bunları nəzərə alaraq, hərb tarixi elmi üzrə kadrların hazırlanması zərurəti yaranmışdır. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası gənc tarixçi alimlər tərəfindən tədqiqatlar aparılması, hərb tarixi elminin inkişaf etdirilməsi üçün bu sahədə çalışan tədqiqatçıların Adyunkturaya maraq göstərməsi səmərəli olardı. 2016-cı ildə respublikanın aparıcı elmi-tədqiqat müəssisələri ilə hərb tarixi sahəsində əməkdaşlığa dair işlərin aparılması və birgə fəaliyyətin təşkili, təqdimatlarda iştirakı, dövri mətbuatlarda və dövlət televiziyasında çıxışları, videoverilişlərin hazırlanması və təqdimatı da bu qəbildəndir. Hazırda Hərbi Akademiyanın Adyunktura və Elm şöbəsi respublikada hərb tarixi üzrə axtarışları, araşdırmaları nizamlayan və istiqamətləndirən bir mərkəzə çevrilmişdir. Bununla bağlı 2016-cı il də Hərbi Akademiyanın rəhbərliyinin təşəbbüsü və göstərişi ilə təşkilatlarla qarşılıqlı elmi fəaliyyətin qurulması və nizamlanması üzrə əməkdaşlıq protokolları, Azərbaycan Tarixi Muzeyi ilə memorandum imzalanmışdır. Bu istiqamətdə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu və respublikanın digər elmi təhsil müəssisələri ilə iş davam edir.

Müasir dövrdə hərb tarixinin tədqiqi ilə əlaqəli məsələlər respublikamız üçün mühüm əhəmiyyət kəsb edir. Məhz bu səbəbdən də həmin istiqamətdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının Adyunktura və Elm şöbəsinin tarixçi alimləri tərəfindən tədqiqatların aparılması və gələcəkdə davam etdirilməsi mühüm vəzifələrdəndir. Hərb tarixi elminin inkişaf etdirilməsi və bu istiqamətdə elmi işlərin davam etdirilib yeni-yeni elmi əsərlər yaradılması, hərbi elmi kadrların hazırlanması sahəsində Müdafiə nazirinin müəyyənləşdirdiyi göstərişlərin, Hərbi Akademiyanın rəhbərliyi tərəfindən təsdiq olunmuş planın keyfiyyətli icrası üçün daha səmərəli yolların müəyyənləşdirilməsi və daha yüksək nəticələrin əldə edilməsi baxımından cari il şöbə üçün daha məsuliyyətli olacaqdır. Şübhə yoxdur ki, Silahlı Qüvvələrin inkişafı və möhkəmləndirilməsi naminə bu vəzifələrin uğurlu həlli istiqamətində Adyunktura və Elm şöbəsi son illərdə əldə etdiyi uğurları daha da zənginləşdirəcəkdir.

**Nurulla ƏLİYEV,**
**tarix elmləri doktoru,**
**Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunktura və Elm şöbəsinin professoru**

# Şahinlərimiz qəhrəmanlıq salnaməmizdə



*Fevralın 14-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, Hərbi Hava Qüvvələri Komandanlığının və Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin birgə təşkilatçılığı ilə "N" hərbi hissəsinin yaradılmasının 25-ci ildönümü təntənəli qeyd olundu.*

Mərkəzi Zabitlər Evinin geniş, işıqlı zalında iri lövhələrdə Hərbi Hava Qüvvələrinin təlimlərdə iştirakını əks etdirən foto sərgi hər kəsin diqqətini çəkirdi. Foto sərgidə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələrimiz haqqında kəlamları xüsusi yer almışdı.

1992-ci il fevralın 14-də Silahlı Qüvvələrimizin ilk aviasiya hərbi hissəsi yaradılıb. Bununla da müstəqil Azərbaycanda hərbi aviasiyanın əsası qoyulub. Hərbi hissənin ilk komandiri xalqımızın fədakar oğlu, Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülən baş leytenant Yavər Əliyev olub.



Yenicə formalaşmaqda olan Azərbaycan Ordusunda milli hərbi pilotlar çox az sayda idi. Buna görə də hərbi vertolyot eskadrilyasında xidmət etmək üçün mülki aviasiya pilotları cəlb edilirdi. Lakin aviasiya sahəsində döyüş tapşırıqlarının yerinə yetirilməsi, vacib vərdişlərin əldə edilməsi məqsədilə təlimatçı pilotlar tərəfindən 45 günlük təlimlər keçirilirdi. 1992-ci il aprelin 11-də azərbaycanlı pilotların iştirakı ilə 4 ədəd Mİ-24 hərbi vertolyotunun ilk döyüş tapşırığı yerinə yetirildi.

Hərbi aviasiyada kadr çatışmazlığını aradan qaldırmaq məqsədilə 1992-ci ilin sentyabrında ildönümünü qeyd etdiyimiz "N" hərbi hissəsinin bazasında Uçuş Texniki Hazırlıq Təlim Mərkəzi yaradılaraq, burada 45 nəfərdən ibarət ilk təyyarəçi-şturman kursları fəaliyyətə başladı.

Bu hərbi hissənin Vətənimizin azadlığı, ərazi bütövlüyü uğrunda şəhid olan 9 nəfər pilotu Azərbaycanın Milli Qəhrəmanı adına, 4-ü isə Azərbaycan Bayrağı ordeninə layiq görülüb.

Yavər Əliyevin, Zakir Yusubovun, Tahir Bağırovun, Firuz Cəlilovun, Zakir Məcidovun, Ruslan Polovinkonun, Yevgeni Korlovun və başqa qəhrəman pilotların adları hərbi hissənin tarixinə qızıl hərflərlə həkk olunub. Aprel döyüşlərində düşmənə ağır, sarsıdıcı zərbələr endirən, torpaqlarımızın azadlığı uğrunda canından, qanından keçən zabitlər Təbriz Musazadə, Urfan Vəlizadə və Əbu-Bəkir İsmayılov hərbi hissənin döyüş ənənələrini mərdliklə, cəsarətlə davam etdiriblər. Sonadək döyüş tapşırıqlarını yüksək peşəkarlıqla yerinə yetirərək Azərbaycan Bayrağı ordeninə layiq görülüblər.

Tədbir başlamazdan öncə söhbət apardığım ilk milli pilotlarımızdan biri Hüseyncan Əzimov maraqlı faktlar açıqladı: "Biz həmin dövrdə mülki avia dəstənin pilotlarıydıq. Sovet dönəmində ən böyük avia şirkətlərdən biriydi. 1988-ci il Qarabağ müharibəsi başlandığı vaxtdan yaralıların təxliyə olunmasında, əhalinin döyüş gedən ərazilərdən təhlükəsiz yerlərə köçürülməsində avia dəstəmizin böyük xidmətləri olub. Düşmən vertolyotlarımızı daim atəşə tuturdu. Bizdə olan daha çox Mİ-2, Mİ-8 vertolyotlarıydı. 1992-ci ilin əvvəllərində avtomobil və dəmiryolu ilə əlaqə kəsildikdən sonra bütün işləri vertolyotlarla görürdük. 1992-ci il fevralın 22-də Müdafiə nazirinin əmri ilə 16 nəfər - 8 komandir, 8 ikinci pilot hərbi eskadrilyanın formalaşdırılmasına cəlb olunduq. Beləliklə, 1992-ci il fevralın 14-ü birinci hərbi uçuş oldu".

Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsinin 25-ci ildönümünə həsr edilmiş bayram tədbiri ümummilli lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canını fəda edən şəhidlərimizin əziz xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı. Tədbir hərbi hissənin tarixini və bu gününü əks etdirən video-çarxın nümayişi ilə davam etdirildi.

Sonra Hərbi Hava Qüvvələrinin şəxsi heyət üzrə komandan müavini polkovnik Elşad Pənahov çıxış edərək bildirdi ki, hələ 1969-1982-ci illərdə ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyi dövründə azərbaycanlı gənclərin ümumittifaq hərbi məktəblərində, o cümlədən hərbi aviasiya məktəblərində təhsil alması istiqamətində əzmkarlıq göstərirdi. "Qarabağ müharibəsi başlayanda milli hərbi aviatorlarımız Vətənə dönərək erməni təcavüzkarlarına qarşı mərdliklə döyüşdülər. Azərbaycan Ordusu və onun ayrılmaz tərkib hissəsi olan hərbi aviasiyamız döyüşlərdə təşkil olunaraq formalaşdı. Bu gün ildönümünü qeyd etdiyimiz hərbi hissənin yaranması və formalaşması da Qarabağ müharibəsi illərinə təsadüf edir. Bu hərbi hissə Qarabağ uğrunda və eyni zamanda Tovuz, Qazax, Ağstafa, Gədəbəy rayonlarında gedən hərbi əməliyyatlarda iştirak edib. Pilotlarımız şərəfli döyüş yolu keçərək, Azərbaycan hərb salnaməsinə şanlı tarix yazmışlar. Müharibənin o qanlı-qadalı illərində hərbi hissənin şəxsi heyətinin fədakarlığı və ilk milli hərbi aviatorlarımızın döyüş yolu bugünkü gənc zabitlərimizə örnəkdir".



Çıxışının sonunda polkovnik Elşad Pənahov tədbir iştirakçılarına Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin müavini, Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov tərəfindən şəxsi heyətə ünvanlanan təbrik məktublarını oxudu və əminliklə bildirdi ki, bu gün Azərbaycan Silahlı Qüvvələri və onun ayrılmaz hissəsi olan Hərbi Hava Qüvvələri işğal olunmuş ərazilərimizi azad etməyə, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin əmr və tapşırıqlarını yerinə yetirməyə hər an hazırdır. "Hərbi Hava Qüvvələrimiz də düşmənə sarsıdıcı zərbələr endirib, qoşunlarımızı və ərazilərimizi düşmən zərbələrindən qorumağa qadirdir."

Bayram tədbirinə qonaq dəvət edilən hərbi hissənin ilk komandirlərindən biri, ehtiyatda olan polkovnik-leytenant Xanlar Səttarova söz verildi. O, çıxışında hərbi hissənin mürəkkəb tarixi bir şəraitdə - Qarabağ müharibəsinin ağır illərində yaradıldığını, özünün isə döyüşlər zamanı daim gərgin ərazilərdə olduğunu söyləyərək, erməni silahlı dəstələrinin hücumlarına məruz qalan dinc sakinlərin təhlükəsiz əraziyə köçürülməsinə töhfəsindən söhbət açdı. Xocalı faciəsi zamanı yaralıları, sağ qalan əhalini ərazidən hansı çətinliklərlə çıxartdıqlarından və rastlaşdığı o dəhşətli səhnələrdən də həyəcanla danışdı.



Günü-gündən güclənən, müasirləşən Silahlı Qüvvələrimizin, o cümlədən Hərbi Hava Qüvvələrinin maddi-texniki bazasının daha da yüksəlməsindən və ötən il aprelin əvvəllərində ordumuzun qələbəsindən danışan keçmiş komandir hərbi hissənin 25-ci ildönümü münasibətilə bütün şəxsi heyəti təbrik etdi, onlara torpaqlarımızın azadlığı uğrunda gələcək döyüşlərdə qələbə arzuladı.

Mərkəzi Zabitlər Evinin Mahnı və Rəqs Ansamblının rəisi, əməkdar mədəniyyət işçisi polkovnik-leytenant Zöhrab İmamquliyevin rəhbərliyi altında təşkil olunan konsert proqramı tədbir iştirakçılarında xoş ovqat yaratdı.

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu",
fotolar
çavuş
Namiq PƏNAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# Milli Qəhrəmanın xatirəsi anılıb



Azərbaycanın Milli Qəhrəmanı şəhid Namiq Abdullayevin xatirəsi igid döyüşçünün adını daşıyan Ağcabədi rayonunun Avşar kənd tam orta məktəbində anılıb.

AZƏRTAC xəbər verir ki, şəhidin ailə üzvlərinin, döyüş yoldaşlarının, "N" hərbi hissəsinin əsgər və zabitlərinin, Qarabağ müharibəsi veteranlarının, rayon ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi tədbir respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinin yad edilməsi ilə başlayıb. Tədbir iştirakçıları Milli Qəhrəmanın büstü önünə tər qərənfillər düzüblər.

Anım mərasimində çıxış edənlər N.Abdullayevin mənalı həyat və qəhrəmanlıqla dolu döyüş yolundan danışıblar. Məlumat verilib ki, Abdullayev Namiq Vahid oğlu 1974-cü ildə Ağcabədi rayonunun Avşar kəndində anadan olub. 1992-ci ilin dekabrında cəbhəyə yollanaraq, Vətənimizin müdafiəsində



iştirak edib. 1993-cü il fevralın 9-da Xocavənd rayonu istiqamətində gedən döyüşlərdə ermənilərin hərbi texnikasını və xeyli canlı qüvvəsini məhv edərək, qəhrəmancasına həlak olub. 1994-cü ildə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Vaxtilə təhsil aldığı Avşar kənd orta məktəbi hazırda qəhrəmanın adını daşıyır.

Tədbirdə məktəblilərin ifasında kompozisiya göstərilib.

# "Tufan" ilk milli zirehli nəqliyyat vasitəsinin təqdimatı olub

*Fevralın 14-də Müdafiə Sənayesi Nazirliyinin (MSN) tabeliyində fəaliyyət göstərən "Aqreqat" İstehsalat Birliyinin Bakı cihazqayırma zavodunda müxtəlif döyüş tapşırıqlarının yerinə yetirilməsi məqsədilə yaradılan minaya davamlı "Tufan" ilk milli zirehli nəqliyyat vasitəsinin təqdimatı olub.*



AZƏRTAC xəbər verir ki, təqdimat mərasimində çıxış edən Müdafiə Sənayesi nazirinin müşaviri Azad Məmmədov bu nəqliyyat vasitəsinin təcrübə-sınaq nümunəsinin MSN-in Milli Aerokosmik Agentliyi tərəfindən (MAKA) hazırlandığını bildirib. Nəqliyyat vasitəsi döyüş şəraitində yerləşən şəxsi heyəti nəql etmək üçün nəzərdə tutulub. Maşın NATO-nun "STANAG 4569" standartının üçüncü səviyyəsinin tələbinə uyğun daşınan şəxsi heyəti məhvedici təsirlərindən qoruyur.

"Tufan" milli zirehli nəqliyyat vasitəsinin xüsusiyyətləri barədə məlumat verən MAKA-nın direktoru Alçın Şirinzadə qeyd edib ki, avtomaşın məsafədən idarə olunan xüsusi döyüş modulu, tank əleyhinə idarə edilən raket kompleksi, radioelektron mübarizə və kəşfiyyat avadanlığı və digər sistemlərlə təchiz edilib. Dizaynı Azərbaycanın yerli mühəndisləri tərəfindən işlənilib və yaradılan bu avtomaşının maketi "ADEX-2016" sərgisində nümayiş olunub. Yeni avtomaşın dizaynına görə, Silahlı Qüvvələrimizdəki və digər ölkələrin ordularında istifadə olunan hərbi avtomaşınlardan kifayət qədər fərqlənir.

Nəqliyyat vasitəsi kəskin yoxuşlarda və enişlərdə, həmçinin su xəndəkləri olan müxtəlif relyef şəraitində rahat hərəkət etmək qabiliyyətinə malikdir. Onun üzərində quraşdırılan döyüş modulu 12,7 millimetrlik iriçaplı pulemyotla təchiz edilib. Modulun üzərində optik nişanlanma sistemləri, gündüz və gecə kameraları, həmçinin lazer məsafəölçəni quraşdırılıb. Döyüş modulunun əsas xüsusiyyəti isə onun bütün proqram təminatının yerli mütəxəssislər tərəfindən hazırlanmasıdır. Döyüş modulu düşmənin yüngül zirehli hədəfləri, atəş vasitələri və hava hədəfləri ilə səmərəli mübarizə aparmaq imkanına malikdir.

Cari ildə keçiriləcək sınaqlardan sonra tibbi yardım, radioelektron mübarizə, polis, kəşfiyyat versiyalarında belə maşınların yaradılması nəzərdə tutulub.

# "Dağlıq Qarabağda planlaşdırılan qondarma "referendum" münaqişə ilə bağlı status-kvonu saxlamaq cəhdidir

*Azərbaycanın işğal edilmiş ərazilərində keçirilməsi planlaşdırılan qeyri-qanuni "referendum" Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı status-kvonu saxlamaq cəhdidir.*

Bu fikri AZƏRTAC-a açıqlamasında Milli Məclis sədrinin müavini, parlamentin insan hüquqları komitəsinin sədri Bahar Muradova deyib.

Bahar Muradova bildirib ki, bu təxribatçı addım, eləcə də Ermənistanın Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağ regionunun adının dəyişdirilməsinə yönəlmiş cəhdləri Ermənistanın münaqişənin həllində maraqlı olmadığını göstərir və regionda gərginliyin artmasına xidmət edir.

"Bütün bu cəhdlər cəfəngiyatdır", - deyən Milli Məclis sədrinin müavini vurğulayıb ki, beynəlxalq təşkilatlar, xarici dövlətlər heç zaman qondarma rejimlərin bu cür saxta "seçkilər"ini tanımayıb və bundan sonra da tanımayacaq. Bütün beynəlxalq təşkilatlar Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi hesab edir və rəsmi mövqelərində Azərbaycanın sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü tanıdıqlarını bəyan ediblər.

Bahar Muradova qeyd edib ki, qondarma "referendum" Azərbaycan Konstitusiyasının, beynəlxalq hüququn norma və prinsiplərinin açıq şəkildə pozulmasıdır və ona görə də hər hansı hüquqi qüvvəsi ola bilməz.

# İdman

## Azərbaycan tennisçisi Fransada beynəlxalq turnirdə qızıl medal qazanıb



Fransanın Metz şəhərində gənclər arasında stolüstü tennis üzrə "Fransa Open" beynəlxalq turnirində şəxsi yarışlar başa çatıb.

27 ölkədən 205 idmançının iştirak etdiyi turnirdə Azərbaycan tennisçisi finalda yaponiyalı idmançı ilə qarşılaşıb. Görüşdə qalib gələn tennisçimiz qızıl medal qazanıb.

## "Qəbələ"nin cüdoçuları ölkə birinciliyində altı medal qazanıblar



Gənc cüdoçular arasında Azərbaycan birinciliyinə yekun vurulub. İki gün davam edən yarışda "Qəbələ" idman klubunun təmsilçiləri də çıxış ediblər.

Klubun idmançıları birinciliyi 6 medalla başa vurublar. Yarışda 55 kiloqram çəki dərəcəsində klubun iki idmançısı fəxri kürsüyə yüksəlib. Rövşən Əliyev birinci, Nurlan Osmanov isə üçüncü yeri tutub.

Finaladək irəliləyən İsmayıl İbrahimov 66 kq, Hasil Cəfərov isə 73 kq çəki dərəcəsində gümüş mükafatçı olublar. Klubun daha iki idmançısı medalçılar sırasına düşə bilib. İmran Yusifov (100 kq) və Vüsal Orucov (100 kq-dan yuxarı) bürünc medal qazanıblar.

Hesabında 1 qızıl, 2 gümüş, 3 bürünc medal olan "Qəbələ" komanda hesabında 18 xalla üçüncü olub.

## Dünya kuboku: Azərbaycan güləşçiləri ABŞ yığması ilə qarşılaşıb



İran İslam Respublikasının Kirmanşah şəhərində böyüklər arasında sərbəst güləş üzrə dünya kuboku yarışları keçirilir.

Püşkatmanın nəticəsinə əsasən, yığma komandamız Rusiya, Gürcüstan və ABŞ idmançıları ilə "A" yarımqrupunda mübarizə aparır.

İlk görüşdə Rusiya idmançıları ilə qarşılaşan güləşçilərimiz görüşü 4:4 hesablı bərabərliklə bitiriblər. Ancaq xalların keyfiyyətinə görə, 32:29 hesabı ilə öndə olan yığmamız görüşü qalib başa vurub. Yarımqrupun ikinci görüşündə yığmamız Gürcüstan güləşçilərini 5:3 hesabı ilə məğlub edib.

Yarımqrupun son görüşünü komandamız ABŞ idmançılarına qarşı keçirib. Ümumi hesab 4:4 olsa da, texniki xallara görə 20:14 hesabı ilə üstün olan ABŞ idmançıları finala yüksəliblər. Yarışda 74 kiloqram çəki dərəcəsində hesabda öndə olan güləşçimiz Murad Süleymanova hakimlər tərəfindən qeyri-obyektiv qərarlar nəticəsində texniki məğlubiyyət verilib.

## Cüdoçularımızın növbəti dayanacağı Romadır



Cüdo üzrə Azərbaycan yığması fevralın 18-19-da Romada Avropa Kuboku yarışlarında iştirak edəcək.

İtaliyaya Oruc Vəlizadə, Mehman Sadiqov, Sahib Əsgərov (hər üçü 60 kiloqram çəki dərəcəsi), İlqar Muşkiyev, Telman Vəliyev, Emil Həsənov, İlkin Babazadə (hamısı 66 kq), Elvin Mustafayev, Zülfüqar Quliyev (hər ikisi 73 kq), Afiq Səfərli, Rüfət İsmayılov, Ziya Namazov (hər üçü 81 kq), Abdulhaqq Rəsullu, Tural Səfquliyev (hər ikisi 90 kq), Kənan Abdullaxanlı və Sənan Əhmədov (hər ikisi 100 kq) yola düşəcəklər.

**AZƏRTAC-ın materialları əsasında**

| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | baş leytenant Ceyhun CƏFƏRLİ | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya №361 Sifariş № 62 Nüsxə 4650 |